**TARİX VƏ SİYASİ ELMLƏR**

**UOT 323**

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ TÜRKİYƏ ƏLEYHİNƏ ERMƏNİ İDDİALARI və AZƏRBAYCANIN ƏKS ARQUMENTLƏRİ

**Gülşən BABAYEVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 17 noyabr 2024; çapa qəbul edilmişdir: 25 yanvar 2025; online-da çap edilmişdir: 15 may 2025.
Received: 17th of November, 2024; accepted: 25th of January, 2025; published online: 15th of May, 2025.

**Açar sözlər:** *İkinci Qarabağ müharibəsi, Türkiyəyə qarşı əsassız erməni iddiaları, informasiya müharibəsi, erməni lobbisi, kütləvi informasiya vasitələri*

## Giriş

Azərbaycanın qəti qələbəsi və Qarabağda 30 ilə yaxındır davam edən erməni işğalının başa çatması ilə nəticələnən İkinci Qarabağ müharibəsi erməni lobbisinin gücünə arxalanaraq illərdir beynəlxalq ictimaiyyətə yalan informasiya ötürən Ermənistanın bu dəfə istədiyinə nail olmadığını da göstərdi. Erməni lobbisinin aqressiv və davakar ritorikasının müharibə dövründə mövqeləri müəyyənləşdirmək və təbliğ etmək imkanları bu dəfə nəticənin Ermənistanın istədiyi kimi olmasında təsirli olmadı. Erməni dövləti və onun ən çox arxalandığı erməni lobbisinin apardığı “yazıq və haqlı Ermənistan” profili müharibədə aldıqları ağır məğlubiyyətlə böyük zərbə aldı.

Ermənistan tərəfindən işğal edilən və Qarabağ və ətraf rayonlar 30 ildən sonra yenidən Azərbaycan dövlətinin suverenliyi altına girdi. Azərbaycan həm cəbhədə, həm də masada əldə etdiyi hərbi-siyasi üstünlüklərə qarşılıq Ermənistan ağır məğlubiyyətə uğrayan tərəf oldu.

Başda ABŞ, Fransa, Livan və Rusiya kimi bir sıra dövlətlərdə güclü şəkildə təşkilatlanan erməni diaspor təşkilatları və onların bir əsrdən artıqdır məqsədyönlü şəkildə dünyaya təbliğ etdikləri “erməni soyqırımı” yalanı, bu dəfə həqiqətləri gizlətmək və işğalçılıq fəaliyyətlərini davam etdirmək üçün yetərli olmadı [6]. Başqa bir ifadə ilə desək, fəaliyyət göstərdikləri ölkələrdə bir əsrdən artıqdır əldə etdikləri siyasi güc və maddi imkanlarla güclü təbliğat maşını formalaşdıran erməni lobbisi, İkinci Qarabağ müharibəsində istəyinə nail ola bilmədi və Ermənistan biabırçı məğlubiyyətdən xilas ola bilmədi. Azərbaycan dövləti yaşadığımız dövrdə qalib gəlmək üçün kütləvi informasiya vasitələrinin imkanlarından istifadə etməyin əhəmiyyətini yaxşı dərk edərək müharibə dövründə bu istiqamətlə ardıcıl addımlar atdı və informasiya boşluğuna imkan vermədi və ermənilərin dünya ictimaiyyətini yanıltmaq cəhdlərinin qarşısını məharətlə aldı. Erməni lobbisinin müharibə dövrünə qədər Qarabağda davam edən erməni işğalını gizlətmək üçün istifadə etdiyi

*dissertant, Gəncə Dövlət Universiteti
*e-mail:* e_durustkari@mail.ru
*ORCID*: https://orcid.org/0009-0008-0162-6482
**https://doi.org/10.30546/25194011.2025.14.2.1010**

“yazıq və haqlı Ermənistan” profili, müharibə dövründə heç bir işə yaramadı və dünya Azərbaycan dövlətinin öz torpaqlarını azad etmək üçün haqlı mübarizəsinə dəstək verdi. İndi isə konkret nümunələr əsasında iki dövlətin Türkiyə üzərindən aparılan təbliğatla bağlı mövqeyinə nəzər yetirək.

**1. Ermənistan rəsmilərinin Türkiyəni hədəf alan bəyanatları**

Ermənistan rəsmiləri Azərbaycan ordusunun müharibənin başladığı 27 sentyabr 2020-ci ildən etibarən üstünlüyü ələ keçirərək işğal altındakı torpaqları sürətlə azad etməyə başlaması Ermənistanın hərbi-siyasi rəhbərliyini təlaşa salmış və bunun nəticəsində də sivil azərbaycanlılara roket və ağır artilleriya ilə hücumlar təşkil edilmiş, xarici dövlət rəsmiləri ilə sıx-sıx telefon danışıqları aparılmış, eyni zamanda Azərbaycan ordusunda xarici muzdlu döyüşçülərin olduğu yalanını yaymağa başlamışlar. Bu yalanlardan biri də, Türkiyənin Azərbaycana beynəlxalq hüququn bütün normalarına uyğun olaraq verdiyi dəstəyin qarşısını almağa yönəlik olmuş, Türk əsgərlərinin Azərbaycan ordusunun saflarında döyüşdüyü yalanı kütləvi informasiya vasitələri ilə dünyaya yayılmışdır. Bununla da kifayətlənməyən Ermənistan qüvvələri, Türkiyənin Suriyada öz nəzarətində döyüşən suriyalı döyüşçülərin bir hissəsini Azərbaycan ordusunun tərəfindən cəbhəyə göndərdiyi xəbərini yaymağa çalışmış, ancaq rəsmi Bakının bütün imkanlarını səfərbər edərək, müntəzəm olaraq media qurumları ilə mətbuat konfransları təşkil edərək bu yalanların qarşısını almaq cəhdləri öz nəticəsini vermiş və Azərbaycan hakimiyyəti üzərində beynəlxalq təzyiqlər yaratmaq mümkün olmamışdır.

Sentyabrın 27-də Ermənistanın Baş Naziri Nikol Paşinyan, Azərbaycan hakimiyyətini genişmiqyaslı təxribatda ittiham etdi. Paşinyana görə, Azərbaycan rəhbərliyinin son dövrlərdəki aqressiv bəyanatları, Türkiyə ilə genişmiqyaslı birgə hərbi təlimlər keçirməsi və ATƏT-in monitorinq təklifini qəbul etməməsi, bu hücumun əvvəlcədən planlaşdırıldığını və genişmiqyaslı təxribat olduğunu açıq şəkildə göstərir.

28 sentyabrda Ermənistanın Xarici İşlər Nazirliyi, “Qarabağ əhalisinin Türkiyə-Azərbaycan ittifaqı ilə müharibə apardığı”nı irəli sürən bəyanat əsasında çıxış etdi. Ermənistanın Rusiyadakı səfiri Vardan Toqanyan, ölkəsinin yeni silahlar tədarük etmək üçün rəsmi Moskvaya müraciət edəcəyini qeyd etdi. Toqanyan, Türkiyənin Suriyadan Azərbaycana 4000 muzdlu döyüşçü göndərdiyini də iddia edərkən [5], onun bu iddiasına Suriya Milli Ordusuna mənsub bəzi döyüşçülər və Suriya İnsan Hüquqları Müşahidə Evi [24], özəl mühafizə xidməti verən bir türk şirkətinin Suriyadakı könüllü döyüşçüləri Qarabağda Azərbaycanın tərəfində döyüşməyə yolladığını irəli sürmüşdür [5]. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyev bu iddiaları “cəfəngiyat” olaraq adlandırdı [5].

İtaliyanın yarı rəsmi gündəlik “Agenzia Nova” qəzeti 28 sentyabr 2020-ci il tarixli nömrəsində Forza İtaliya Partiyasının senatoru və Xarici Əlaqələr Komissiyasının fraksiya lideri Enriko Ayminin bəyanatını “Aymi: Türkiyə və Azərbaycanın Ermənistana qarşı hücumu qınansın” adı altında oxucularına çatdırmışdır [4]. Qəzetdə yer alan bu xəbərdə, Ayminin “Dünya indiyə kimi baş verən ən böyük təhdid olan Koronavirus pandemiyası ilə qarşılaşmışkən, XXI əsrin Sultanı Rəcəb Tayyip Ərdoğan tərəfindən başladılan Osmanlı İmperiyasının dirilişinə şahid oluruq” şəklindəki ifadələrini ön plana çıxarmışdır.

Hər nə qədər bu xəbər rəsmi Romanın mövqeyini əks etdirməsə də, verdiyi bəyanatda ermənilərin Xristian olduğunu qeyd edərək Azərbaycanı bu ölkəyə hücum etməkdə ittiham etməsi, bu mövqeyinə bəraət qazandıracaq əsaslı heç bir dəlil ortaya qoymamışdır. Enriko Aymi, bu hücumun 1915-ci ildə yaşanmış sözdə “Erməni soyqırımı” ilə oxşarlıq təşkil etdiyini qeyd edərək, “soyqırım” ifadəsindən istifadə etmiş, müharibənin əsl səbəbkarlarını məzlum göstərməyə çalışmış və dini təəssübkeşlik hissini gizlətmədən ədalətin yox, ədalətsizliyin tərəfindən durmuşdur [2, s. 157].

29 sentyabrda Ermənistanın Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan, ölkəsinə aid SU-25 qırıcı təyyarənin bir Türk F16-sı tərəfindən düşürüldüyünü irəli sürdü. Türkiyənin Prezident Administrasiyasının Mətbuat katibi Fəxrəddin Altun, məsələyə dair verdiyi bəyanatda "Ermənistan belə ucuz təbliğat aparacağına, vaxt itirmədən işğal etdiyi əraziləri tərk etsin" dedi. Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyənin müharibənin tərəfi olmadığını qeyd edərkən [4], Ermənistanın Baş naziri Nikol Paşinyan isə Türkiyənin müharibəyə fəal şəkildə qatıldığını irəli sürdü [21].

Almaniyanın mətbuat orqanları içində 30 ildir torpaqları işğal altında olan, bir milyondan artıq qaçqın və məcburi köçkünü olan, işğal atındakı əraziləri talan edilmiş və problemin sülh yolu ilə həllini səbrlə dəstəkləmiş Azərbaycan Respublikasının ədalət axtarışının sonuncu mərhələsini qərəzli mövqedən əks etdirərək, ermənipərəst xəbərlərə yer vermiş və Prezidenti Ərdoğan üzərindən güclənən Türkiyə qarşısından qorxularını bu şəkildə açığa çıxarmışdır. Nümunə üçün 30 sentyabr 2020-ci il tarixində "Frankfurter Rundschau" qəzetinin "Ərdoğanın xaos siyasəti"ni əlavə edə bilərik. Türkiyə Prezidenti fəal şəkildə gərginliyin artmasını dəstəkləyir və  bölgəyə muzdlu döyüşçülər göndərdiyi iddia edilir" başlığını manşetlərinə daşımışdır. Həftələrlə Qafqazın üzərinə müharibə buludlarının yığıldığını görməmək mümkün deyildi. Azərbaycan və Ermənistan arasında Ermənistanın Dağlıq Qarabağ bölgəsi uğrunda mübarizə 1994-cü ildə imzalanmış atəşkəs sazişindən sonra heç vaxt olmadığı qədər şiddətlidir. Hər iki tərəf bir-birini təcavüzdə ittiham etsə də, münaqişənin mürəkkəb tarixi onu göstərir ki, bu hücum Türkiyə tərəfindən tarixi "baş düşmən" olaraq görən kiçik Xristian dövlət olan Ermənistan üzərinə Azərbaycanın hücuma keçməsi ilə başlamışdır [4]. Xəbər göründüyü kimi tarixi həqiqətləri saxtalaşdırmaq, mühabirənin səbəblərini və tərəflərini təhrif etmək məqsədi daşıyır. Çünki başqa bir dövlətin ərazisini sırf həmin ərazidə yaşayan insanlarla etnik bağ olduğu üçün işğal edən dövlətə açıq dəstək var. Bu isə alman faşizminin digər dövlətləri həmin dövlətlərdə etnik almanların yaşaması səbəbi ilə işğal etməsinə bəraət qazandırması ilə eynilik təşkil edir. Türkiyənin bu müharibədə rolu ilə beynəlxalq hüququn bütün prinsiplərinə uyğun olmuş, Azərbaycanın haqlı mövqeyini dəstəkləmiş və heç vaxt fəal şəkildə müharibədə yer almamışdır.

Qarabağda fəaliyyət göstərən separatçı rejimin rəhbəri Arayik Harutyunyan, 1 oktyabr tarixində ermənilərin uzun müddətli müharibə ilə qarşı-qarşıya olduqlarını bəyan etdi [23]. İki gün sonra isə Qarabağdakı separatçı rejim sözdə xarici işlər nazirliyi, "regional sülh və təhlükəsizliyi təmin etmək" üçün beynəlxalq ictimaiyyəti sözdə "Dağlıq Qarabağ Respublikası"nın müstəqilliyini tanımağa səslədi [5].

Amerikanın "Wall Street" jurnalı, 5 oktyabrda dərc olunan nəşrində yer verdiyi xəbərdə, "Ərdoğan üçün Qafqaz regionunda əldə olunacaq bir qələbə, şəxsi qələbə  olacaqdır. Ərdoğanın xristian ermənilərə qarşı şiələrin əksəriyyəti təşkil etdiyi etnik türk olan azərbaycanlıların yanında yer alması dindar və millətçi türklər arasında çox populyardır" ifadələrinə yer vermişdir [19].

Ermənistan Baş naziri Paşinyan 6 oktyabrda fransız xəbər agenti "AFP"yə verdiyi bir müsahibəsində müharibədə Türkiyənin fəal şəkildə iştirak etdiyini və bu iştirakın erməni soyqırımının tərkib hissəsi olduğunu iddia etmişdir [7]. "Time" jurnalına verdiyi bir müsahibədə isə Paşinyan Türkiyənin regiondakı angajmanının dayandırılması və muzdlu əsgərlərin bölgəni tərk etməsi şərti ilə sülh danışıqlarına başlamağa hazır olduqlarını ifadə etmişdir [6].

Ermənistan Prezidenti Armen Sarkisyan 9 oktyabrda verdiyi bəyanatda rəsmi Ankaranın "Qafqazda ikinci Suriya" yaratmağa cəhd etdiyini iddia etdi və beynəlxalq güclərin, xüsusilə ABŞ, Rusiya və NATO-nun – Türkiyənin müharibədə iştirak etməsinin qarşısını almaq üçün daha çox təzyiq göstərmələrini tələb etdi [26].

Baş nazir Paşinyan 21 oktyabrda "bu mərhələdə diplomatik danışıqlardan söz etməyin mümkün olmadığı" üçün Azərbaycanla kompromis variantının qəbuledilməz olduğunu bildirdi [22].

44 günlük müharibə dövründə "Amerikanın xarici siyasəti" jurnalı, "Xarici siyasət", "Die Welt", "Amerikan Xəbər Agentliyi – AP" kimi bir sıra qərb mənşəli mətbuat orqanları, mənsubu olduqları dövlətin mövqeyinə təsir etmək və ictimaiyyəti erməni yalanları ilə aldatmaq məqsədilə həqiqəti əks etdirməyən yalan xəbərlər yaymaqla məşğul olmuşlar [2, s.164-165]. Ancaq başda Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev başda olmaqla ölkə rəhbərliyinin güclü diplomatik fəaliyyəti və informasiya müharibəsində qalib gəlmək uğrunda böyük səyləri nəticəsində bu qara piar heç bir nəticə verməmiş, ədalət qələbə qazanmışdır.

Yuxarıda aparılan təhlillər müxtəlif ölkələrin mətbuat orqanları və informasiya agentliklərinin Ermənistan rəsmilərinin tədqiq olunan məsələyə dair bəyanatları və müsahibələrinə əsaslanır. Tədqiq olunan materiallar onu göstərir ki, Ermənistan dövləti heç gözləmədiyi halda Azərbaycanın hərbi gücü qarşısında ağır məğlubiyyətin sürətlə yaxınlaşmasının qarşısını almaq üçün həm cəbhədə, həm də diplomatik müstəvidə böyük bir təlaşla hərəkət edərkən, digər tərəfdən. beynəlxalq ictimaiyyətin dəstəyini arxasına almaq və Azərbaycan üzərində xarici təzyiqləri artırmaq üçün Türkiyəni hədəf halına gətirməyə çalışmışdır. Uzun illərdir ki, Türkiyəyə qarşı beynəlxalq səviyyədə hər cür ittihamlardan istifadə edən ermənilər, müharibə dövründə də belə əməllərindən əl çəkməmiş və əsassız qaralama kompaniyasına davam etmişlər.

## 2. Azərbaycanın erməni iddialarına qarşı arqumentləri

Azərbaycan Müdafiə Nazirliyinə görə, hərbi əməliyyatların başlamasından bir gün əvvəl, erməni hərbi birləşmələri iri çaplı silahlardan və snayperlərdən istifadə edərək iki ordunun təmas xətti boyunca müxtəlif istiqamətlər üzrə atəşkəsi 48 dəfə pozmuş, bunun qarşılığında Azərbaycan Silahlı Qüvvələri buna cavab olaraq müharibəyə başlamışdır [20].

27 sentyabrda Azərbaycan Respublika Prezidentinin Xarici məsələlər üzrə müşaviri Hikmət Hacıyev erməni silahlı qüvvələrini, Azərbaycan silahlı qüvvələrinin təmas xətti boyunca yer alan hərbi bölmələrinə "qəsdən" hücum etdiyini [25] və eyni zamanda "qəsdən sivil əhalini hədəf seçdiyini" bəyan etmişdir.

28 sentyabrda H.Hacıyev "Ermənistanın bu günə kimi həyata keçirdiyi siyasətin sülh danışıqlarının nəticəsiz qalmasına səbəb olduğunu" qeyd etmişdir [4]. H.Hacıyev daha sonra "Ermənistan əsgərlərinin Qarabağa yerləşdirilməsinin regionda sülhün bərqərar olmasının qarşısını aldığını qeyd edərək, Ermənistanı "səhv və lazımsız" məlumatlar hazırlamaqla günahlandırmış və Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq hüququn prinsiplərinə uyğun hərəkət etdiyini irəli sürmüşdür [16].

Türkiyənin müharibədə fəal yer aldığına dair əsilsiz erməni iddialarına qarşı çıxan Azərbaycan Xarici işlər Naziri "Türkiyənin müdaxiləsi"nin əsassız olduğunu qeyd edərək, "Türkiyə ilə Azərbaycan arasında hərbi və texniki əməkdaşlıqdan söz gedirsə, o zaman Azərbaycanın digər dövlətlərlə hərbi və texniki əməkdaşlığı var və hətta bəzi ölkələrlə bu əməkdaşlığın miqyası daha genişdir" demişdir.

Müharibənin başladığı ilk günlərdən etibarən Türkiyəni də münaqişəyə cəlb etmək istəyən Ermənistan rəhbərliyi döyüşlərin şiddətləndiyi günlərdə erməni lobbisinin də dəstəyi ilə əsassız təbliğat kompaniyası heç bir nəticə verməmişdir. Türkiyəni Qarabağa döyüşçü göndərməkdə ittiham edən Ermənistanın bu əsassız iddiaları qarşısında Türkiyə və Azərbaycan, Suriya və Livandan gətirilərək Ermənistan ordusu tərəfində döyüşə cəlb edilən PKK terror təşkilatına mənsub muzdlu döyüşçülərin olduğunu faktlarla dünya ictimaiyyətinin nəzərinə çatdırmışdır [6]. Müharibə başlamadan əvvəl, bir sıra türk informasiya

mənbələri İraq və Suriyadan kürdlərin qurduqları PKK və YPG adlı terrorçu təşkilatlara mənsub döyüşçülərin İran üzərindən Qarabağa gəldiyini və müharibənin başlaması halında Azərbaycana qarşı döyüşəcəkləri xəbərlərini servis etməyə başlamışdılar [12]. 30 sentyabr günü türk mətbuat orqanları 300 PKK-lı terrorçunun İran ərazisindən keçərək Qarabağa getdiyinə dair xəbərlər paylaşdılar [11; 27]. Azərbaycan Respublikasının Baş Prokurorluğu, PKK və YPG terror təşkilatlarına üzv döyüşçülərin erməni ordusunun saflarında Azərbaycana qarşı döyüşdüklərini iddia etdi [9]. Bundan başqa, PKK-nın liderlərindən Layika Gültekin "Qarabağa qədər gedərək, erməni hərbçilərlə çiyin-çiyinə döyüşürük. Ermənistan xalqı nə vaxt istədə, onların yanında olacağıq" şəklində açıqlamalar verdi və əsir düşən bəzi erməni əsgərləri də PKK üzvlərinin Ermənistan tərəfdə Azərbaycana qarşı döyüşdüklərini etiraf etdilər [8].

New York Timesin döyüş bölgəsinə göndərilmiş əməkdaşı Şarlota Qal cəbhə bölgəsində və yaxın ərazilərdə baş verən prosesləri düzgün işıqlandırmış və Azərbaycanın haqlı mövqeyini dünyaya çatdırmağa çalışmışdır [15]. Nümunə üçün qeyd edək ki, erməni ordusunun Bərdəni raket və ağır artilleriya atəşinə tutmasını qərəzsiz şəkildə obyektiv olaraq işıqlandırmış, 21 nəfər dinc sakinin həlak olduğunu, 70 nəfərin yaralanması haqqında məlumatı dünya ictimaiyyətinə çatdırmışdır, zərərçəkənlərdən bu dəhşətli hücumlar haqqında reportajlar almışdır.

T.Səmədbəyli və E.Şeşen İkinci Qarabağ müharibəsində xarici mətbuat orqanlarının mövqeyini əks etdirən maraqlı tədqiqatlardan birini həyata keçirmişlər [24, s. 7]. Belə ki, aparılan tədqiqat işində Türkiyə, Rusiya və İngiltərə mətbuat orqanlarını təhlil edərək, həmin mətbuat orqanlarında problemin həlli üçün irəli sürülən təkliflər nəzərdən keçirilmişdir. Belə təkliflərin yer aldığı xəbərlərin 20-si türk mətbuat orqanlarında, 3-ü ingilis mətbuatında, 15-i isə rus mətbuatında yer almışdır. Eyni ardıcıllıqla, tərəflər arasında atəşkəsin əldə olunmasına yer verən xəbərlər 14,6,10 olaraq müəyyən edilmişdir. Tədqiq edilən xəbərlərin yarısından çoxunda (53,2 %) sülhə dair pozitiv üslub, 49 xəbərdə (24,1%) neqativ üslub, 46 xəbərdə (22,7 %) isə tərəfsiz üslub nəzərə çarpmışdır. Maraqlı və heç də təəccüb hissi doğurmayan fakt isə odur ki, pozitiv üsluba malik xəbərlərin 55-i Türk mətbuatına aiddir. Pozitiv üsluba malik ingilis mətbuatında 11, rus mətbuatında isə 42 xəbər yer almışdır. Neqativ üsluba malik xəbərlərin sayı isə yuxarıdakı ardıcıllıqla belə olmuşdur: 28 xəbər türk mətbuatı, 9 xəbər ingilis mətbuatı, 12 xəbər rus mətbuatı. Tədqiq edilən cəmi 203 xəbər arasında pozitiv üsluba malik türk mətbuatında yer alan xəbər sayı 27,1%, neqativ üsluba malik xəbər sayı 13,8%, ingilis qəzetlərində yer alan pozitiv üsluba malik xəbər sayı 5,4% neqativ, 4,4%, rus mətbuatında yer alan pozitiv xəbər sayı 20,7% və neqativ xəbər sayı 5,9% olaraq müəyyən edilmişdir. Tərəfsiz xəbərlərin sayın həcmi isə 14,7%, 2,9% və 4,9% olmuşdur. Bu isə onu göstərir ki, bu üç ölkənin mətbuat orqanları müharibənin başa çatması və problemin həllinə dair pozitiv üslub nümayiş etdirmişlər.

Azərbaycanın mövqeyini əks etdirən informasiya mənbələrinin təhlili onu deməyə əsas verir ki, Ermənistanın əsassız ittihamlarına qarşılıq, Azərbaycan tutarlı dəlillərlə onun Türkiyəyə qarşı səsləndirdiyi bütün arqumentləri çürütmüş, eyni zamanda ermənilərin tərəfində döyüşmək üçün xarici muzdlu döyüşçülərlə bağlı məlumatları xarici informasiya mənbələrinə ötürmüşdür.

## Nəticə

Nəticə etibarilə, Ermənistanın İkinci Qarabağ müharibəsinin ən başından etibarən məğlub olacağını başa düşməsi, bunun qarşısını almaq üçün xarici havadarlarının dəstəyini artırmaq və üçüncü dövlətlərin Azərbaycana təzyiq göstərməsi üçün öz tərəfinə çəkmək üçün Türkiyənin də müharibədə yer aldığını bəyan etməsi, Azərbaycan və Türkiyənin informasiya müharibəsində fəal olması sayəsində nəticəsiz qalmışdır. Azərbaycan

və Türkiyənin təkcə hərbi sahədə deyil, beynəlxalq hüquqda, qurumlarda və beynəlxalq mediada verdiyi mesajlardakı qətiyyətli, inandırıcı və aydın mövqeyi bu sahədə əldə olunan uğurlardan sonra ən böyük çəkindirici amillərdən biri olmuşdur. Azərbaycan və Türkiyənin erməni lobbisinə və Ermənistanın təbliğatına qarşı göstərdiyi düzgün mövqe nəticəyə təsir edən çox mühüm faktor kimi özünü göstərmişdir.

Müharibəyə qədər keçən mərhələdə Azərbaycanın 20% ərazisini 30 ilə yaxın müddətdə işğal altında saxlayan, soyqırım yalanı ilə dünyaya “yazıq və haqlı erməni” profili təqdim edən, özlərinin törətdikləri “Xocalı soyqırımı”nı gizləməyə çalışan erməni lobbisinin qaralama və həqiqətləri təhrif etmək cəhdləri Qarabağ müharibəsində nəticəsiz qalmışdır. Güclü siyasi əlaqələri və dünyanın aparıcı informasiya agentlikləri ilə əlaqələri sayəsində Azərbaycan və Türkiyəyə qarşı əsassız təbliğatlar aparan ermənilər bu təbliğatın beynəlxalq ictimaiyyət tərəfindən qəbul görməsinə öyrəşmişdir. Müharibə dövründə isə Azərbaycanın hüquqi və tarixi əsaslandırması, sahədəki üstünlüyü və qətiyyəti qarşısında aciz qalmışdır.

Beləliklə, “böyük erməni lobbisi” mifinə uzun müddət özünə gələ bilməyəcək şəkildə ağır zərbə endirilmişdir. İkinci Qarabağ müharibəsi, müasir dövrdə istər ənənəvi kütləvi informasiya vasitələrindən, istərsə də yeni kütləvi informasiya vasitələrindən və sosial şəbəkələrdən istifadə etməyin qədər əhəmiyyətli olduğunun dərk edilməsi baxımından əhəmiyyətli olduğuna dair əsaslı nümunədir.

## ƏDƏBİYYAT

1. Hikmət Hacıyev: Ordumuz Azərbaycan ərazisinin təhlükəsizliyini təmin edir/28 September 2020, (https://web.archive.org/web/20200928091003/https://report.az/dagliq-qarabag-munaqishesi/hikmet-haciyev-ordumuz-azerbaycan-erazisinin-tehlukesizliyini-temin-edir/).
2. Altınalan H. İkinci Karabağ savaşında ermeni propagandası ve medya // Türkbilig, 2022, №44, s. 153-176.
3. Dağlık Karabağ: Ermenistan Başbakanı Paşinyan New York Times’a konuştu, 'Hastalanmasaydı Trump ile Türkiye’nin rolünü görüşecektim' dedi / 05 October 2020. (https://web.archive.org/web/20201007125924/https://www.bbc.com/turkce/haberler-dunya-54415080)
4. Dağlık Karabağ: Ermenistan bir savaş uçağının Türk F-16`sı tarafından düşürüldüğünü öne sürdü, Türkiye ve Azerbaycan iddiayı yalanladı / 29 September 2020. (https://www.bbc.com/turkce/haberler-turkiye-54340987).
5. Dağlık Karabağ: Ermenistan Türkiye'yi çatışmalarda Azerbaycan'a askeri destek vermekle suçladı / 27 September 2020. (https://www.bbc.com/turkce/haberler-dunya-54315251).
6. Erbay N.Ö. Karabağ zaferi ve “Büyük ermeni lobisi” mifinin çöküşü // Kriter, 2020, 5(52). (https://kriterdergi.com/dosya-azerbaycanin-ermenistan-zaferi/karabag-zaferi-ve-buyuk-ermeni-lobisi-mitinin-cokusu).
7. Ermenistan Başbakanı Paşinyan: Türkiye`nin aktif katılımı olmasaydı bu savaş başlamazdı / 7 October 2020. (https://www.bbc.com/turkce/haberler-dunya-54444854).
8. PKK`lı teröristten Karabağ itirafı! / 28 noyabr 2020. (https://web.archive.org/web/20201130143210/https://www.haberturk.com/pkk-dan-ermenistan-itirafi-son-dakika-pkk-li-teroristten-karabag-itirafi-haberler-2885127)
9. Rehimov R. Azerbaycan`da, Dağlık Karabağ`da Ermenistan saflarında savaşan PKK/PYD /YPG terör örgütü üyelerine soruşturma açıldı / 13 noyabr 2020. (https://web.archive.org/web/20201113213113/https://www.aa.com.tr/tr/azerbaycan-cephe-hatti/azerbaycanda-daglik-karabagda-savasan-pkk-pyd-ypg-teror-orgutu-uyelerine-sorusturma-acildi/2042998).

10. Şeşen E., Samadbayli T.G. İkinci Karabağ Savaşı`nın Türkiyə, ABŞ ve Rusya Medyasına Yansıması // Nigde: NOHU İFAD, 2023, №2/1, s. 1-19.
11. Armenia Diduga Gunakan Teroris YPG/PKK Lawan Azerbaijan / 30 September 2020. : (https://internasional.republika.co.id/berita/qhgiks564132251/armenia-diduga-gunakan-teroris-ypgpkk-lawan-azerbaijan?)
12. Armenia transfers YPG/PKK terrorists to occupied area to train militias against Azerbaijan / Daily Sabah, 25 Semtember 2020. (https://web.archive.org/web/20200925144447/https://www.dailysabah.com/politics/war-on-terror/armenia-transfers-ypgpkk-terrorists-to-occupied-area-to-train-militias-against-azerbaijan).
13. Armenia-Azeirbagian, Aimi (Fi): Condannare Aggressione Turco-Azera / Agenzia Nova, 28 September 2020. (https://grupposenatoforzaitalia.it/forza-italia/armenia-azeirbagian-aimi-fi-condannare-aggressione-turco-azera/)
14. Azerbaijan denies Turkey sent Syria fighters to support it / 29 September 2020, URL: (https://www.middleeastmonitor.com/20200929-azerbaijan-denies-turkey-sent-syria-fighters-to-support-it/)
15. Gall C. Turkey Jumps Into Another Foreign Conflict, This Time in the Caucasus / The New York Times. 01 October 2020. (https://www.nytimes.com/2020/10/01/world/middleeast/turkey-azerbaijan-armenia-war.html).
16. Hikmat Hajiyev: Armenia prepares very false and needless information/ 28 September 2020. (https://apa.az/en/nagorno_karabakh/Hikmat-Hajiyev:-“Armenia-prepares-very-false-and-needless-information”-331408).
17. Karabakh urges international community to recognize its independence / 3 October 2020. (https://web.archive.org/web/20201004132912/https://www.panarmenian.net/eng/news/285974/).
18. Konflikt um Bergkarabach weitet sich aus: Erdogan provoziert Putin / Frankfurter Rundschau, 01 October 2020. (https://www.fr.de/politik/erdogans-krawallpolitik-90056735.html).
19. Mead W.R. Can Anyone Stop the Caucasus Clash? Turkey bets that the West and Russia will sit idle as Nagorno-Karabakh burns / Wall Street Journel. 5 October 2020. (https://www.wsj.com/articles/can-anyone-stop-the-caucasus-clash 11601938812?mod=searchresults&page=1&pos=).
20. Ministry of Defence of the Republic of Azerbaijan / Frontline news, 26 September 2020, (https://mod.gov.az/en/news/ceasefire-32291.html).
21. Pashinyan says Turkey seeks to continue Armenian genocide in Nagorno-Karabakh / “Duvar English” Turkey`s own independent gazette, 07 October 2020, URL: (https://www.duvarenglish.com/diplomacy/2020/10/07/pashinyan-says-turkey-seeks-to-continue-armenian-genocide-in-nagorno-karabakh).
22. PM: There is no diplomatic solution to Karabakh issue, at least not in this stage / 21 October 2020. (https://web.archive.org/web/20201024020708/https://en.armradio.am/2020/10/21/pm-there-is-no-diplomatic-solution-to-karabakh-issue-at-least-not-in-this-stage/).
23. Putin, Macron call for Nagorno-Karabakh ceasefire as deaths mount / 1 October 2020. (https://www.aljazeera.com/news/2020/10/1/putin-macron-call-for-nagorno-karabakh-ceasefire-as-deaths-mount).
24. Syrian rebel fighters prepare to deploy to Azerbaijan in sign of Turkey's ambition / 28 September 2020. (https://web.archive.org/web/20201002050822/https://www.syriahr.com/en/186036).
25. Tensions flare between Armenia and Azerbaijan over new clashes / Gulf-Times. 27 September 2020. (https://www.gulf-times.com/story/673912)
26. Turkey creating another Syria in Caucasus / Armenian President Tells Financial Times, 09 October 2020. (https://web.archive.org/web/20201027110843/https://hetq.am/en/article/12286).

27. Turkey: Armenia transports hundreds of PKK militants to fight Azerbaijan / September 30, 2020. (https://www.middleeastmonitor.com/20200930-armenia-transports-hundreds-of-pkk-militants-to-fight-azerbaijan/)

***Резюме***

***Гульшан Бабаева***

***Претензии армении к Турции во время второй Карабахской войны и контраргументы Азербайджана***

Вторая Карабахская война показала, что Азербайджанское государство сформировало четкую стратегию по предfотвращению политики Армении по использованию возможностей мощного армянского лобби, существующего в ряде стран мира, для оформления позиции международного сообщества в соответствии со своими национальными интересами. Одним из компонентов этой стратегии было предотвращение армянской кампании по очернению азербайджано-турецкого сотрудничества в ведущих мировых СМИ. С этой целью регулярно организовывались встречи с журналистами самых влиятельных мировых СМИ во главе с Президентом Азербайджанской Республики Ильхамом Алиевым и другими государственными должностными лицами, давались ответы на вопросы представителей этих СМИ, пресекались попытки армян распространять ложную информацию, в том числе армянские утверждения о том, что Турция является тайной стороной войны с целью подрыва законной позиции Азербайджана.

В статье рассматривается армянская клеветническая кампания против Турции во время войны и шаги, предпринятые Азербайджаном для противодействия ей. Для этого были проведены анализы с использованием новостей и комментариев, отражающих позиции обеих сторон в средствах массовой информации разных стран мира, а также заявлений и интервью, данных средствам массовой информации высшими государственными должностными лицами двух стран во время войны.

Изученные материалы показывают, что в то время как армянское государство действовало с большой паникой как на фронте, так и на дипломатическом уровне, чтобы предотвратить быстрое приближение тяжелого поражения от военной мощи Азербайджана, оно пыталось сделать Турцию мишенью, чтобы получить поддержку международного сообщества и преодолеть внешнюю напряженность по поводу Азербайджана. Однако юридическое и историческое оправдание Азербайджана, его превосходство и решительная позиция на фронте сделали Армению бессильной. Таким образом, мифу о «великом армянском лобби» был нанесен тяжелый удар, который не мог оправиться в течение длительного времени.

**Ключевые слова:** *Вторая Карабахская война, необоснованные претензии Армении к Турции, информационная война, армянское лобби, средства массовой информации.*

***Summary***

***Gulshan Babayeva***

***Armenian Claims to Turkiye in the second Karabakh War and Counter-Arguments of Azerbaijan***

The second Karabakh war showed that the Azerbaijani state has formed a solid strategy to prevent Armenia's policy of using the opportunities of the powerful Armenian lobby existing in a number of countries of the world to design the position of the international community in line with its national interests. One of the components of this strategy was to prevent the Armenian campaign to slander Azerbaijani-Turkish cooperation in the world's leading mass media. For this purpose, regular meetings were organized with journalists from the world's most influential media outlets, led by the President of the Republic of Azerbaijan Ilham Aliyev, and other state officials, questions addressed by representatives of those media outlets were answered, and attempts by Armenians to spread false information were prevented, including Armenian claims that Turkiye was a secret party to the war in order to undermine Azerbaijan's rightful position.

This article examines the Armenian smear campaign against Turkiye during the war and the steps taken by Azerbaijan to counter it. For this purpose, analyses were conducted by referring to news and comments reflecting the positions of both sides in the mass media of various countries of the world, as well

as statements and interviews given to the mass media by the highest-ranking state officials of the two countries during the war.

The materials studied show that while the Armenian state acted with great panic both on the front and at the diplomatic level in order to prevent the rapid approach of a heavy defeat against the military power of Azerbaijan, it tried to make Turkiye a target in order to gain the support of the international community and to overcome foreign tensions over Azerbaijan. However, Azerbaijan's legal and historical justification, its superiority and resolute position on the front made Armenia remain powerless. Thus, the myth of the "great Armenian Lobby" has been dealt a heavy blow, unable to recover for a long time.

**Key words:** *Second Karabakh War, unfounded Armenian claims against Turkiye, information war, Armenian lobby, mass media*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.